# Pestisidlər və aqrokimyəvi maddələr haqqında

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikasında pestisidlərin və aqrokimyəvi maddələrin sınağının, qeydiyyatının, istifadəsinin və kənd təsərrüfatına aqrokimyəvi xidmətin təşkilinin hüquqi əsaslarını müəyyən edir.

I fəsil

## ÜMUMİ MÜDDƏALAR

### Maddə 1. Əsas anlayışlar

Bu Qanunda istifadə olunan termin və anlayışlar aşağıdakı mənaları ifadə edir:

**pestisidlər** — ziyanverici, xəstəlik və alaq otlarına qarşı istifadə edilən kimyəvi və bioloji aktiv maddələr;

**aqrokimyəvi maddələr** — torpaqların münbitliyinin artırılması, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının yüksəldilməsi və məhsulun keyfiyyətinin yaxşılaşdırılması məqsədilə tətbiq edilən üzvi, mineral və bakterial gübrələr, kimyəvi meliorantlar, bitkilərin boy artımının tənzimləyiciləri və digər maddələr;

**qalıq miqdarı** — məhsulda, torpaqda, suda, canlı orqanizmlərdə, ətraf mühitdə pestisidlərin və aqrokimyəvi maddələrin, habelə onların metobolitlərinin təsiredici hissəsinin miqdarı;

**tətbiq reqlamenti** — pestisidlərin və aqrokimyəvi maddələrin tətbiqi qaydalarının məcmusu;

**torpaq sahəsinin (tarlanın) aqrokimyəvi pasportu** — torpaqların aqrokimyəvi və fitosanitar göstəriciləri haqqında məlumatları, onların zəhərli maddələrlə və radionuklidlərlə çirklənməsi vəziyyətini əks etdirən sənəd;

**aqrokimyəvi müayinə** — torpaqların münbitlik və çirklənmə göstəricilərinə dövlət nəzarətini həyata keçirmək məqsədilə kənd təsərrüfatı torpaqlarının vaxtaşırı müayinəsi.

### Maddə 2. Pestisidlər və aqrokimyəvi maddələr haqqında qanunvericilik

Pestisidlər və aqrokimyəvi maddələr haqqında Azərbaycan Respublikasının qanunvericiliyi bu Qanundan, "Bitki mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunundan və onlara uyğun qəbul edilmişdigər normativ-hüquqi aktlardan ibarətdir.

Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində pestisidlər və aqrokimyəvi maddələr haqqında müəyyən edilmiş qaydalar bu Qanunda nəzərdə tutulmuş qaydalara uyğun gəlmədikdə beynəlxalq müqavilələrin qaydaları tətbiq olunur.

### Maddə 3. Pestisidlər və aqrokimyəvi maddələrlə bağlı fəaliyyətin əsas prinsipləri

Pestisidlər və aqrokimyəvi maddələrlə bağlı fəaliyyət aşağıdakı prinsiplər əsasında həyata keçirilməlidir:

pestisidlərin və aqrokimyəvi maddələrin tətbiqinin iqtisadi və bioloji səmərəliliyinə nisbətən insanların sağlamlığının qorunmasına və ətraf mühitin mühafizəsinə üstünlük verilməsi;

pestisidlərin və aqrokimyəvi maddələrin istehsalına, sınağına, qeydiyyatına, idxalına, ixracına, saxlanmasına zərərsizləşdirilməsinə, məhv edilməsinə və tətbiqinə dövlət nəzarətinin məcburiliyi;

pestisidlərin və aqrokimyəvi maddələrin tətbiqinin zəruriliyinin əsaslandırılması və təsdiq edilmiş reqlamentlərə əməl edilməsi;

bitki mühafizə tədbirlərini ekoloji cəhətdən təhlükəsiz, qeyri-kimyəvi metodlarla həyata keçirmək hesabına pestisidlərdən istifadənin minimuma endirilməsi;

M a d d ə 4 . **Pestisidlərin və aqrokimyəvi maddələrin dövlət sınağı və qeydiyyatının təşkili**

Pestisidlərin və aqrokimyəvi maddələrin dövlət sınağı və qeydiyyatını müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

I I f ə s i l

## PESTİSİDLƏRİN VƏ AQROKİMYƏVİ MADDƏLƏRİN DÖVLƏT SINAĞI VƏ QEYDİYYATI

M a d d ə 5 . **Dövlət sınağına təqdim olunmuş pestisidlərə və aqrokimyəvi maddələrə tələblər**

Azərbaycan Respublikasında istehsal olunmuş və xaricdən gətirilmiş dövlət sınağına təqdim olunan pestisidlər və aqrokimyəvi maddələr aşağıdakı tələblərə cavab verməlidir:

məqsədli təyinatı üzrə yüksək bioloji təsirə malik olmalı;

müəyyən olunmuş reqlamentlərə əməl edilməsi şərtilə insanların sağlamlığına, qorxu yaratmamalı, ətraf mühitin, flora və faunanın təhlükəsizliyini təmin etməli;

dövlət standartlarının tələblərinə və sanitariya-gigiyena normalarına uyğun gəlməli.

M a d d ə 6 . **Pestisidlərin və aqrokimyəvi maddələrin dövlət sınağının aparılması**

Azərbaycan Respublikasında və xarici ölkələrdə istehsal edilmiş pestisidlərin və aqrokimyəvi maddələrin dövlət sınağı onların bioloji, gigiyena-toksikoloji və ekoloji cəhətdən qiymətləndirilməsi və tətbiq reqlamentlərinin işlənib hazırlanması məqsədilə aparılır.

Dövlət sınağına pestisidlərin və aqrokimyəvi maddələrin preparat forması təqdim edilir.

Pestisidlərin və aqrokimyəvi maddələrin dövlət sınağı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş təlimata uyğun olaraq müvafiq elmi-tədqiqat müəssisələrində aparılır.

Pestisidlərin və aqrokimyəvi maddələrin dövlət sınağı üç mərhələdə aparılır:

laboratoriya sınağı;

tarla sınağı;

istehsalat sınağı.

Laboratoriya sınağı yeni preparatların tarla şəraitində tətbiq reqlamentlərinin hazırlanması məqsədilə aparılır.

Tarla sınağı zamanı yeni preparatın istifadədə olan preparata nisbətən bioloji səmərəliliyi müəyyən edilir və tətbiq reqlamenti işlənib hazırlanır.

İstehsalat sınağı respublikanın müxtəlif təbii-iqlim zonalarında preparatın bioloji, təsərrüfat və iqtisadi səmərəliliyini təsdiq etmək, onun sanitariya-gigiyena və ekoloji normativlərini dəqiqləşdirmək vəəsaslandırmaq, preparatın qalıq miqdarının və təhlükəli cəhətlərinin (metobolitlərinin) müəyyən edilməsi metodikasını işləyib hazırlamaq və təkmilləşdirmək məqsədilə aparılır.

Laboratoriya, tarla və istehsalat sınaqları nəticəsində müsbət qiymətləndirilən pestisidlərin və aqrokimyəvi maddələrin istifadəsi və qeydiyyata alınması barədə müvafiq icra hakimiyyəti orqanı tərəfindən qərar qəbul edilir.

**M a d d ə 7. Pestisidlərin və aqrokimyəvi maddələrin qeydiyyatı**

Dövlət sınağından keçmiş pestisidlər və aqrokimyəvi maddələr bu sahədə sahibkarlıq fəaliyyətinə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırıldıqdan sonra qeydiyyata alınırlar.

Qeydiyyata pestisidlərin və aqrokimyəvi maddələrin dövlət sınağının və tədqiqat materiallarının müsbət nəticələri barədə sənədləri təqdim edilir.

Pestisidlərin və aqrokimyəvi maddələrin qeydiyyatının məcburi şərti onların mənşəyi və keyfiyyəti barədə sertifikatlarının, təhlükəsiz tətbiqi, kənd təsərrüfatı və ərzaq məhsullarında, yemlərdə, torpaqda, suda vəətraf mühit obyektlərində həmin preparatların qalıq miqdarının müəyyən edilməsi metodikası üzrə müvafiq təlimatların olmasıdır.

Pestisidlərin və aqrokimyəvi maddələrin qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

Qeydiyyata alınmış pestisidlər və aqrokimyəvi maddələr kənd təsərrüfatında və meşə təsərrüfatında istifadəsinə icazə verilmiş preparatlar siyahısına daxil edilirlər.

Pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyətinə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanları , habelə gömrük orqanları qeydiyyatdan keçmiş pestisidlərin vəaqrokimyəvi maddələrin müvafiq qaydada təsdiq edilmiş siyahıları və standart nümunələri ilə, onların qalıq miqdarının müəyyən edilməsi üzrə metodik sənədlərlə təmin edilirlər.

Pestisidlərin və aqrokimyəvi maddələrin qeydiyyat müddəti 5 ildir. Preparatların təhlükəsizliyi barədə yeni, əvvəllər aşkar olunmayan məlumatlar daxil olduğu hallarda müvafiq icra hakimiyyəti orqanı onların tətbiqini tamamilə və ya müvəqqəti dövr üçün qadağan edə bilər.

Ölkədə (bölgədə) sanitariya - epidemioloji və təbiəti mühafizə şəraiti ilə bağlı ayrı-ayrı hallarda müvafiq icra hakimiyyəti orqanları pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı fəaliyyət növlərini məhdudlaşdıra və ya dayandıra bilər.

Pestisidlərin və aqrokimyəvi maddələrin qeydiyyat müddəti başa çatdıqdan sonra onlar müəyyən edilmiş qaydada yenidən qeydiyyatdan keçirilirlər.

## I I I f ə s i l

## PESTİSİDLƏRLƏ VƏ AQROKİMYƏVİ MADDƏLƏRLƏ BAĞLI SAHİBKARLIQ FƏALİYYƏTİ

**M a d d ə 8. Pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyətinin təşkili**

Pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**M a d d ə 9. Pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyətinin subyektləri**

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada pestisidlərin və aqrokimyəvi maddələrin istehsalı, alqı-satqısı, saxlanması və tətbiqi ilə məşğul olan fiziki və hüquqi şəxslər pestisidlərləvə aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyətinin subyektləridir.

**M a d d ə 10. Pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqları**

Pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin aşağıdakı hüquqları vardır:

sahibkarlıq fəaliyyətini müstəqil qurmaq;

qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla istehsal etdikləri və xaricdən gətirdikləri pestisidlərə və aqrokimyəvi maddələrə sahiblik, istifadə və sərəncam hüquqlarını sərbəst həyata keçirmək;

istehsal etdikləri və xaricdən gətirdikləri preparatların qanunvericilikdə nəzərdə tutulmuş qaydada sənədləşdirilməsini müvafiq icra hakimiyyəti orqanlarından tələb etmək;

dövlət proqramları əsasında bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi və torpaqlarda aqrokimyəvi tədqiqatların aparılması məsələlərində tətbiq edilən maliyyə güzəştlərindən istifadə etmək;

qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

### M a d d ə 1 1 . **Pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyəti subyektlərinin vəzifələri**

Pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyəti subyektlərinin vəzifələri aşağıdakılardır:

pestisidlər və aqrokimyəvi maddələr haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə əməl etmək;

pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı fəaliyyətin əsas prinsiplərinə riayət etmək;

pestisidlərin və aqrokimyəvi maddələrin tətbiqinə dair dövlət standartlarının, sanitariya və texnoloji normaların, reqlamentlərin və digər normativ sənədlərin tələblərinə əməl etmək;

istehsal etdikləri və xaricdən gətirdikləri bitki mühafizəsi vasitələrinin, kimyəvi və bioloji maddələrin keyfiyyət göstəricilərinə zəmanət vermək;

istifadəsi yararsız və qadağan olunmuş pestisidlərin və aqrokimyəvi maddələrin zərərsizləşdirilməsini və ya məhv etdirilməsini təmin etmək;

müəyyən edilmiş qaydada pestisidlərin və aqrokimyəvi maddələrin uçotunu aparmaq və müvafiq orqanlara məlumat vermək;

qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

### M a d d ə 1 2 . **Pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyəti subyektlərinin uçotu və dövlət qeydiyyatı**

Pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin uçotu və hüquqi şəxslərin dövlət qeydiyyatı Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq həyata keçirilir.

## I V f ə s i l

## PESTİSİDLƏRİN VƏ AQROKİMYƏVİ MADDƏLƏRİN İSTEHSALI, ƏLDƏ EDİLMƏSİ VƏ İSTİFADƏSİ

### M a d d ə 1 3 . **Zəhərli kimyəvi maddələrin istehsalı**

Zəhərli kimyəvi maddələrin istehsalı insanların sağlamlığının və ətraf mühitin təhlükəsizliyinin təmin edilməsi şərtilə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hüquqi şəxslər tərəfindən həyata keçirilir.Azərbaycan Respublikasında istehsal olunmuş zəhərli kimyəvi maddələr müvafiq qaydada dövlət sınağından keçirilir və qeydiyyata alınır, onların texniki şərtləri və standartlaşma üzrə normativ sənədləri hazırlanır.

Pestisidlərin və aqrokimyəvi maddələrin standartlaşmasını Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı həyata keçirilir.

Azərbaycan Respublikasının dövlət standartlarının tələblərinə və ya Azərbaycan Respublikasının ərazisində rəsmi tanınan beynəlxalq, regional (hövzə) və dövlətlərarası standartlara uyğun olmayan, insanların həyatı, sağlamlığı və əmlakına, habelə ətraf mühitə zərər vura bilən zəhərli kimyəvi maddələrin istehsalına, satışına və istifadəsinə yol verilmir.

Pestisidlər və aqrokimyəvi maddələr Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada sertifikatlaşdırılır.

M a d d ə 1 4 . **Pestisidlərin və aqrokimyəvi maddələrin idxalı və ixracı**

Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş, istifadəsinə icazə verilmiş preparatlar siyahısına daxil edilmiş, mənşəyi və keyfiyyətləri barədə sertifikatları olan və müvafiq qaydada qablaşdırılmış pestisidlər və aqrokimyəvi maddələr idxal və ixrac oluna bilər.

Mənşəyi və keyfiyyətləri barədə sertifikatları olmayan pestisidlərin və aqrokimyəvi maddələrin Azərbaycan Respublikasına gətirilməsi, satışı, tətbiqi və reklam edilməsi qadağan edilir.

Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində başqa şərtlər nəzərdə tutulmamışdırsa, pestisidlərin və aqrokimyəvi maddələrin idxal və ixrac edilməsində beynəlxalq sertifikatların göstəriciləri qəbul edilir.

Qeydiyyatdan keçməmiş pestisidlər və aqrokimyəvi maddələr aşağıdakı hallarda idxal və ixrac oluna bilər:

elmi-tədqiqat işlərində istifadə və sərgilərdə nümayiş etdirmək üçün;

bitki mühafizə vasitələri ilə işlənmiş toxumlarla birlikdə;

fövqəladə hallarda karantin və digər iqtisadi cəhətdən təhlükəli ziyanverici, xəstəlik və alaq otlarının kütləvi çoxalmasının qarşısını almaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının qərarına əsasən.

Qeydiyyatdan keçməmiş pestisidlərin və aqrokimyəvi maddələrin göstərilmiş məqsədlər üçün gətirilməsinin və tətbiq edilməsinin məcburi şərti onların istifadəsinin müvafiq sənədlərlə təsdiq edilməsidir.

Qeydiyyatdan keçməmiş pestisidlər və aqrokimyəvi maddələr mütləq qaydada müvafiq icra hakimiyyəti orqanının nəzarəti altında idxal və ixrac olunmalıdır.

M a d d ə 1 5 . **Pestisidlərin və aqrokimyəvi maddələrin qablaşdırılması və etiketləşdirilməsi**

Azərbaycan Respublikasında istehsal olunmuş və istifadə üçün təklif edilmiş pestisidlər və aqrokimyəvi maddələr müvafiq standartlara və texniki şərtlərə uyğun olaraq qablaşdırılmalı və etiketləşdirilməlidir.

Pestisidlərin və aqrokimyəvi maddələrin hər partiyası kimyəvi bitki mühafizə vasitələrinin texniki şərtləri ilə müşayiət edilməlidir.

M a d d ə 1 6 . **Pestisidlərin və aqrokimyəvi maddələrin saxlanması və daşınması**

Pestisidlərin və aqrokimyəvi maddələrin saxlanması və daşınması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş kənd təsərrüfatında zəhərli kimyəvi preparatların saxlanması, daşınması və tətbiqinin sanitariya qaydalarına uyğun olaraq həyata keçirilir.

M a d d ə 1 7 . **Pestisidlərin və aqrokimyəvi maddələrin tətbiqi**

Pestisidlərin və aqrokimyəvi maddələrin tətbiqi torpaqların aqrokimyəvi müayinəsi, əkinlərin vəziyyəti, bitkilərin qida maddələrinə tələbatı, ziyanverici, xəstəlik və alaq otları ilə sirayətlənmə proqnozu nəzərəalınmaqla həyata keçirilir.

Yüksək toksiki-ekoloji təhlükəli pestisidlər və aqrokimyəvi maddələr səhiyyə, baytarlıq və ətraf mühitin mühafizəsi üzrə müvafiq icra hakimiyyəti orqanlarının razılığı ilə tətbiq edilir.

Yüksək toksiki-ekoloji təhlükəli pestisidlərin və aqrokimyəvi maddələrin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Fövqəladə ekoloji şərait zonalarında pestisidlərin və aqrokimyəvi maddələrin tətbiqi məhdudlaşdırılır.

Təbiəti mühafizə, sağlamlaşdırma, istirahət və turizm zonalarında, su fondu torpaqlarında, suqoruyucu və xüsusi qorunan digər ərazilərdə pestisidlərin tətbiqi bir qayda olaraq qadağan olunur.

Pestisidlərin və aqrokimyəvi maddələrin tətbiqinin vacibliyi əsaslandırıldıqda, dövlət sanitariya və ekoloji ekspertizasının müsbət rəyi əsasında belə ərazilərdə müvafiq icra hakimiyyəti orqanının nəzarəti altında pestisidlərin və aqrokimyəvi maddələrin məhdud çeşidlərinin tətbiqi mümkündür.

İstehsal mənşəyinə görə adlar verilən şərabların hazırlanması üçün üzüm sortlarının becərilməsində herbisitlərdən istifadəyə yol verilmir. [1]

**M a d d ə 1 8 . İstifadəsi yararsız və qadağan olunmuş pestisidlərin və aqrokimyəvi maddələrin geri alınması, zərərsizləşdirilməsi və məhv edilməsi**

İstifadəsi yararsız və qadağan olunmuş pestisidlər və aqrokimyəvi maddələr, habelə onların qabları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada geri alınmalı, zərərsizləşdirilməli və ya məhv edilməlidir.

## V f ə s i l

## KƏND TƏSƏRRÜFATINA AQROKİMYƏVİ XİDMƏT

**M a d d ə 1 9 . Torpaqlarda aqrokimyəvi tədqiqat işlərinin aparılması**

Aqrokimyəvi tədqiqatlar aparmaq, torpaqların münbitliyini öyrənmək, mineral, üzvü gübrələrə və meliorantlara tələbatını, əkin qatında qida maddələrinin, zəhərli kimyəvi maddələrin, ağır metalların qalıq miqdarını və radionuklidlərin radiasiya səviyyəsini müəyyən etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən əkinə yararlı torpaqlarda aqrokimyəvi tədqiqat işləri aparılır və sahələrin kartoqramlarıhazırlanır.

Torpaqlarda aqrokimyəvi tədqiqat işlərini kənd təsərrüfatına aqrokimyəvi xidmət göstərən layihə-axtarış stansiyaları və aqrokimya laboratoriyaları aparır. Tədqiqat işlərinin nəticələrinə görə torpaq sahələrinəaqrokimyəvi pasportlar verilir.

**M a d d ə 2 0 . Kənd təsərrüfatı və ərzaq məhsullarının keyfiyyətinə tələblər**

Kənd təsərrüfatı və ərzaq məhsullarında, yemlərdə, xammalda, bitki və heyvan mənşəli qida maddələrində pestisidlərin və aqrokimyəvi maddələrin qalıq miqdarı dövlət standartları ilə müəyyən edilmişsəviyyədən artıq olmamalı və sanitariya-gigiyena normalarına cavab verməlidir.

Kənd təsərrüfatı və ərzaq məhsullarının tərkibində zəhərli kimyəvi maddələrin qalıq miqdarı yol verilən normativ səviyyədən artıq olarsa onların satışına icazə verilmir. İstifadəsi

mümkün olmayan kənd təsərrüfatı və ərzaq məhsulları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada geri alınır, zərərsizləşdirilir və ya məhv edilir.

Yüksək keyfiyyətli (markalı) brendilərin (konyakların) istehsalı prosesində kükürd anhidridindən istifadə edilməsinə yol verilmir. [2]

### M a d d ə 2 1 . Pəhriz və uşaq qida maddələrinin istehsalı üçün xüsusi xammal bölgələri

Yüksək keyfiyyətli, ekoloji cəhətdən təmiz pəhriz və uşaq qida maddələrinin istehsalı üçün əlverişli fitosanitar və texnoloji şərait yaratmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanları xüsusi xammal bölgələri müəyyən edə bilər.

Xüsusi xammal bölgələrinin hüdudları, hüquqi və texnoloji rejimi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Xüsusi xammal bölgələrində pestisidlərin tətbiqi qadağan edilir. Belə bölgələrdə aqrokimyəvi maddələrin tətbiqi ekoloji cəhətdən təmiz ərzaq məhsullarının əldə olunmasını təmin edən xüsusi texnologiyalar üzrəhəyata keçirilir.

## V I f ə s i l

## PESTİSİDLƏRLƏ VƏ AQROKİMYƏVİ MADDƏLƏRLƏ BAĞLI SAHİBKARLIQ FƏALİYYƏTİNƏ DÖVLƏT NƏZARƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ

### M a d d ə 2 2 . Pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyətinə dövlət nəzarətini həyata keçirən orqanlar

Pestisidlərin və aqrokimyəvi maddələrin istehsalı, idxalı, ixracı, saxlanması və tətbiqi üzərində, habelə kənd təsərrüfatı və ərzaq məhsullarında, yemlərdə, torpaqda, suda və ətraf mühit obyektlərində zəhərli kimyəvi maddələrin qalıq miqdarına dövlət nəzarətini öz səlahiyyətləri daxilində müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər.

### M a d d ə 2 3 . Pestisidlərlə və aqrokimyəvimaddələrlə bağlı sahibkarlıq fəaliyyətinə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarının hüquqları

Pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyətinə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarının aşağıdakı hüquqları vardır:

mülkiyyət formasından asılı olmayaraq pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərdən pestisidlər və aqrokimyəvi maddələr haqqında qanunvericiliyə əməl edilməsini tələb etmək;

mülkiyyət formasından asılı olmayaraq fəaliyyətləri pestisidlərin və aqrokimyəvi maddələrin istehsalı, idxalı, ixracı, saxlanması və tətbiqi ilə bağlı olan müəssisələrdə, idarələrdə, təşkilatlarda və nəzarət altında olan digər obyektlərdə müayinələr üçün lazımi nümunələr götürmək;

qanunvericiliklə müəyyən edilmiş qaydada pestisidlərin və aqrokimyəvi maddələrin tətbiqini dayandırmaq;

standartların və standartlaşdırma üzrə digər normativ sənədlərin tələblərinə cavab verməyən pestisidlərin və aqrokimyəvi maddələrin ölkəyə gətirilməsini, satışını, tətbiqini, habelə pestisidlərlə və aqrokimyəvi maddələrlə müəyyən edilmiş normalardan artıq çirklənmiş ərzaq məhsullarının emalı və satışını, suların istifadəsini qadağan etmək;

pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyətinə dövlət nəzarətini həyata keçirmək üçün müəssisələrdən, idarələrdən, təşkilatlardan və vətəndaşlardan məlumatlar almaq;

pestisidlər və aqrokimyəvi maddələr haqqında qanunvericiliyin pozulmasında təqsirkar olan şəxslərin qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi üçün müvafiq tədbirlər görmək.

Pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyətinə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarının yazılı tələblərinin və qərarlarının icrası məcburidir.

V I I  f ə s i l

## PESTİSİDLƏRLƏ VƏ AQROKİMYƏVİ MADDƏLƏRLƏ BAĞLI FƏALİYYƏTƏ HİMAYƏDARLIQ VƏ QANUNVERİCİLİYİN POZULMASINA GÖRƏ MƏSULİYYƏT

M a d d ə 2 4 . **Pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı qulluq vəzifəsini yerinə yetirən işçilərə güzəştlər**

Pestisidlərin və aqrokimyəvi maddələrin istehsalı, daşınması, saxlanması, tədqiqi, tətbiqi, zərərsizləşdirilməsi və məhv edilməsi ilə bağlı işləri bilavasitə yerinə yetirən və bu sahədə nəzarət müayinəsi aparan işçilərə Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq güzəştlər tətbiq edilir.

M a d d ə 2 5 . **Pestisidlərin və aqrokimyəvi maddələrin tətbiqi üzrə dövlət tədbirlərinin maliyyələşdirilməsi**

Pestisidlərin və aqrokimyəvi maddələrin tətbiqi üzrə aşağıdakı dövlət tədbirləri dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilir:

dövlət proqramları əsasında torpaqlarda aqrokimyəvi tədqiqatların aparılması və sahələrin pasportlaşdırılması;

bitkilərin karantin və digər iqtisadi cəhətdən təhlükəli ziyanverici, xəstəlik və alaq otlarına qarşı mübarizəsi üzrə dövlət tədbirlərinin həyata keçirilməsi;

torpaqlarda aqrokimyəvi maddələrin tətbiqi ilə mədəni-texniki tədbirlərin, o cümlədən kimyəvi meliorasiyasının aparılması;

pestisidlərin və aqrokimyəvi maddələrin dövlət sınağının və qeydiyyatının aparılması.

M a d d ə 2 6 . **Pestisidlər və aqrokimyəvi maddələr haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Vəzifəli şəxslər və vətəndaşlar:

insanların həyatına, sağlamlığına, əmlakına və ətraf mühitə təhlükə törədə bilən və ya törətmiş pestisidlər və aqrokimyəvi maddələrlə bağlı məlumatları gizlətdikdə və ya təhrif etdikdə;

pestisidlərin və aqrokimyəvi maddələrin istehsalı və istifadəsi zamanı müvafiq standartların, sanitariya-gigiyena normalarının və digər normativ sənədlərin tələblərinə əməl etmədikdə;

pestisidlərlə və aqrokimyəvi maddələrlə kənd təsərrüfatı və ərzaq məhsullarının, yemlərin, torpağın, suyun və ətraf mühit obyektlərinin normalardan artıq çirklənməsinə yol verdikdə;

pestisidlərin və aqrokimyəvi maddələrin tətbiq reqlamentlərini, saxlanması, daşınması və satışı üzrə sanitariya qaydalarını pozduqda;

qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla dövlət sınağından və qeydiyyatından keçməmiş pestisidlərin və aqrokimyəvi maddələrin idxalına, ixracına və istifadəsinə yol verdikdə;

istifadəsi yararsız və qadağan olunmuş pestisidlərin və aqrokimyəvi maddələrin, habelə qalıq miqdarına görə müəyyən edilmiş tələblərə cavab verməyən kənd təsərrüfatı və ərzaq məhsullarının satışına vəistifadəsinə yol verdikdə;

pestisidlərlə və aqrokimyəvi maddələrlə bağlı sahibkarlıq fəaliyyətinə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarının yazılı tələblərini və qərarlarını yerinə yetirmədikdə, habelə pestisidlər və aqrokimyəvi maddələr haqqında qanunvericiliyin pozulmasının digər hallarında Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

### M a d d ə 27. **Pestisidlər və aqrokimyəvi maddələr haqqında qanunvericiliyin pozulmasına görə vurulan ziyanın ödənilməsi**

Pestisidlər və aqrokimyəvi maddələr haqqında qanunvericiliyin pozulması nəticəsində vurulmuş ziyanın həcmi və ödənilməsi qaydaları Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edilir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 6 may 1997-ci il
№ 294-IQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

3 dekabr 2002-ci il tarixli 389-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 7**)

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 3 dekabr 2002-ci il tarixli 389-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 7**) ilə 17-ci maddəyə yeddinci hissə əlavə edilmişdir.

[2] 3 dekabr 2002-ci il tarixli 389-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 7**) ilə 20-ci maddəyə üçüncü hissə əlavə edilmişdir.